**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI
ELMİ-METODİKA ŞÖBƏSİ.



Görkəmli yazıçı, publisist, nasir
Əli Vəliyevin anadan olmasının
110 illiyi münasibətilə

# UZUN OMRÜN AKKORDLARI.

(metodiki vəsait)

BAKI-2011

## Tərtibçidən

Əli Vəliyev yazıçıların o nəslinə mənsubdur ki, onlar inqilabdan əvvəl zəhmətkeş xalqın ağır həyatını öz gözləri ilə görmüş, inqilabdan sonra isə zəhmətkeşlərlə birlikdə böyük quruculuq işlərində yaxından iştirak etmişlər. Məhz buna görə də o ilk hekayəsini çap etdirəndən sonra yazdığı əsərlərinin çoxunda bilavasitə şahidi olduğu hadisələri, yaxından tanıdığı insanların taleyini qələmə almışdır. Son iyirmi ildə çap etdirdiyi əsərlərdə isə tarixiliyinə, real şəxslərin fəaliyyətinə marağı daha da güclü olmuşdur. Şahidi olduğu ictimai-siyasi hadisələri, tərcümeyi-halı ilə bağlı olan tipik epizodları yaradıcılıq süzgəcindən keçirmək nəticəsində ”Budağın xatirələri”(1963-64), “Bir cüt tərlan”, ”Turaclıya gedən yol”(1962), “İşığa doğru” (1975),“Zəngəzur qartalları”(1970) və s. bu kimi əsərlər yaratmışdır. Bu roman, povest, hekayə və oçerklərin meydana çıxmasında müəllifin tərcümeyi-hal faktları mühüm rol oynamışdır. Bu il mədəni-maarif müəssisələrində, məktəb və kitabxanalarda görkəmli yazıçımız Əli Vəliyevin anadan olmasının 110 illiyi qeyd olunur. Bu münasibətlə bir neçə yubiley tədbirləri nəzərdə tutulmuşdur və kitabxanamız da öz növbəsində kitabxanaçılara kömək məqsədi ilə Əli Vəliyevə həsr olunmuş metodiki vəsaiti sizə təqdim edir.

Vəsait iki hissədən ibarətdir. Girişdə Əli Vəliyevin həyat və yaradıcılıq yolu işıqlandırılmışdır. İkinci hissədə isə kitabxanalarda keçiriləcək tədbirlər haqqında məlumat verilir.

# I. Həyat və yaradıcılığı

Həyatda elə adamlar var ki, onların əsil müəllimi həyat özü olur. İctimai varlıq onları bərkə-boşa salır, çətinliklərdən keçirir, sınaqlardan çıxarır. Belələri həyatı, insanların arzu və dərdlərini dərindən bilir, xalq ruhunu incəliklərinə qədər duyub dərk etmək iqtidarına malik olurlar. Belə adamlardan biri də Əli Vəliyevdir. O, köhnə dünyanın əzablarını çəkmiş, gözü ilə odlar götürmüş, minlərin, milyonların taleyinin canlı şahidi olmuş müdrik bir el ağsaqqalıdır. Onun keçdiyi həyat yolunu hər cür tufana, çovğuna sinə gərən möhkəm, dəyanətli bir palıd ağacının ömrünə bənzətmək olar. Bu ağacın kökləri torpağın çox-çox dərin qatlarına qədər gedib çıxır. Zamanın heç bir qasırğası onu kökündən, xalq həyatından, torpaqdan qoparıb sarsıda bilməmişdir.

Gözəl oçerklər, onlarca romanlar və povestlər, yüzlərlə hekayə müəllifi kimi tanıdığımız Azərbaycan xalq yazıçısı, nasir və publisist Əli Qara oğlu Vəliyev 24 fevral 1901-ci ildə dünyaya göz açdı. Onun doğulub boy atdığı və indi hal-hazırda Erməni tapdağı altında olan Ermənistanın Sisyan rayonunun Ağdu kəndi özünün səfalı ab havası, diş göynədən soyuq suları, sərt sıldırım qayaları, bərəkətli taxıl zəmiləri, biçənəkləri, şaqqaşuqla qaynayan bulaqları ilə insana cox şey aşılayır. Bu mühit Əlı Vəliyevin uşaq təbiətinə çox böyük təsir etmiş, uşaq təbiətinə dəyanət, sədaqət, mərdlik, düzlük, vüqar, məğlubedilməzlik kimi keyfiyyətlər aşılamışdır. Əli Vəliyev sərtlik və möhkəmliyi dağlardan və qayalardan, zəriflik və kövrəkliyi güllərdən, çiçəklərdən, səxavət və mehribanlığı isə buz bulaqlardan, dağların, düzlərin təmiz havasından, çayların şırıltısından, bulaqların zümzüməsindən almışdır.

Əli Vəliyev yaradıcılığa şeirlə başlamışdır. Güclü həyat müşahidəsini şeirə çevirməkdə çətinlik çəkən müəllif çox çəkmədən özünün bütün fəaliyyətini nəsr və mətbuatla bağlayır. Bu sahədə yazıçı qeydindən, oçerk və publisistikadan məktub formasından tutmuş, nəsrin roman və povest kimi iri janrlarına qədər elə bir sahəsini tapmaq olmaz ki, Əli Vəliyev orada öz qələmini sınamamış olsun.

Əli Vəliyevin ilk ədəbi yazısı 1924-cü ildə, "Nənəmin cəhrəsi" adlı ilk hekayələr kitabı 1930-cu ildə çap edilmişdir. "Qəhrəman" (1941) romanında insanların yeni həyat uğrunda mübarizəsindən bəhs olunmuş, "Cəbhə hekayələri" (1942), "Sovqat" (1944) kitabları Böyük Vətən müharibəsi döyüşçülərinin qəhrəmanlığına, zəhmətkeşlərin fədakar əməyinə həsr edilmişdir. Müharibədən sonrakı yaradıcılığında kənd mövzusu əsas yer tutmuşdur. "Gülşən" (1948), "Çiçəkli" (1950), "Ürək dostları" (1956), "Jurnalist kəndə gəlir" (1963), "Təzəgülün mərifəti" (1965), "Narahat adam" (1966), "Sənət eşqi" (1973), "İşığa doğru" (1975) kimi povest və romanlarında kolxoz kəndinin həyatı, onun yüksəlişi, yeni ictimai-əxlaqi münasibətlərin formalaşması əks etdirilmiş, köhnəliyə qarşı barışmaz mübarizə aparan, yüksək mənəvi keyfiyyətlərə malik müasirlərimizin dolğun bədii surətləri yaradılmışdır. "Turaclıya gedən yol"(1962) və qismən avtobioqrafik yazı olan "Budağın xatirələri" (1963-64), "Qarabağda qalan izlər" (1976) romanlarında bəy və mülkədarların özbaşınalığı, zəhmətkeşlərin hakimiyyət

uğrunda mübarizəsi, yeni həyat quruculuğu təsvir olunmuşdur. Əli Vəliyev həm də görkəmli jurnalist və publisistdir. “Zəngəzur qartalları” (1970), Əmək Qəhrəmanı adına layiq görülmüş azərbaycanlı qadınlara həsr olunmuş “Durna qatarı” (1972) oçerki çap edilmişdir. Əli Vəliyev uşaqları da unutmamış, onlar üçün də ”Ərköyün”, (1944) “Madarın dastanı”, (1955) “Uşaqlara sovqat”, (1962), “Əziz nəvələrimə” (1964) adlı əsərlər yazmışdır. Sadəlik, təbiilik Əli Vəliyevin bədii üslubunun əsas xüsusiyyətlərindən biri kimi özünü göstərmişdir. Onun əsərləri başqa xalqların dillərinə də tərcümə edilmişdir.

Əli Vəliyevin uşaqlığı və gəncliyi çox faciəli olmuşdur. O, doğma adamlarının hamısını faciəli surətdə itirmiş, atası, anası, üç bacısı və bacısı uşaqları öz gözləri qarşısında xəstəlikdən, ya da acından ölmüşlər. Ac-susuz, evsiz-eşiksiz və paltarsız özgə qapılarında qalan 18 yaşlı gənc tamamilə ümidsiz qalır. Yazıçı sənədli əsərlərinin hamısında bu illəri xatırladır. Onun “Budağın xatirələri” romanının birinci kitabında, “Turaclıya gedən yol”, “Qarabağda qalan izlər” romanlarında, “Sənət eşqi”, “Qohumlar” povestlərində, “Durna qatarı”ndakı bir sıra oçerklərində qaçqınlıq illərinin acınacaqlı real səhnələrlə təsvir edilmişdir.

Xalq yazıçısı, tanınmış nasir, publisist Əli Vəliyev keşməkeşli əsrimizin ilk burulğanlı ilində gözünü dünyaya açmış, həyatın hər üzünü görə-görə mənsub olduğu xalqın səksən illik tarixinin fəal iştirakçısına, bu tarixin bədii salnaməçisinə çevrilmişdir. Qələmi nəsrin bütün janrlarında sınaqdan çıxmış ədibin əsərlərindəki xəlqi keyfiyyətlər onun təkrarsız şəxsiyyətilə bilavasitə bağlıdır. Əli Vəliyevin yaradıcılığı üçün səciyyəvi cəhətlərdən birincisi həyatilik, xəlqilik, bütün kökləri ilə, bütün varlığı ilə xalqa bağlılıqdır. Uydurma, quraşdırma hadisələr, qeyri-adi əhvalatlar, kitablardan, filimlərdən obrazlar sənətkarın yaradıcılığına yaddır. O, ancaq gördüklərini, duyduqlarını, şahidi olduqlarını yazırdı. Bu söhbətlər o qədər şirin, o qədər inandırıcı, o qədər səmimidir ki, oxucunu qətiyyən yormur, onu real hadisələrin, olmuş əhvalatların coşğun axarına alıb aparır... Ədəbi-bədii və ictimai fəaliyyətində xalq həyatının problemlərinə həmişə vətəndaşlıq mövqeyindən cürətlə müdaxilə edən sənətkarın yeri cəmiyyətin bugünkü yenidənqurma və aşkarlıq mərhələsində daha çox görünür.

Əli Vəliyev haqqında indiyədək çox yazılsa da, onun həyatı və yaradıcılığı barədə nisbətən tam təsəvvür oyadan bir əsər, vəsait əldə yoxdur. Halbuki yoxsullar, savadsızlar mühitindən, muzdurluqdan xalq yazıçısı zirvəsinədək gəlib çıxan bir şəxsin keçdiyi mərhələ ümumən cəmiyyətdə unikal hadisələr və yaxın tariximizin canlı səhifələri qədər əhəmiyyətlidir. O, mənalı həyatının çoxunu ədəbi yaradıcılığa həsr etmişdir.

Görkəmli nasir uşaq və gənclərin sevimli yazıçısı, publisist bir çox əsərlər müəllifi Əli Qara oğlu Vəliyev 1983-cü ildə Bakı şəhərində yaxınlarının əhatəsində həyatla vidalaşmışdır. Ondan bizə yadigar qalan onun ölməz əsərləri, romanları, povestləri, oçerkləri və hekayələri olmuşdur.

## II. Keçiriləcək yubiley tədbirləri

Bu il respublikamızın ədəbi ictimaiyyəti xalq yazıçısı, ölməz sənətkarımız, sevimli yazıçımız Əli Vəliyevin 110 illik yubileyini qeyd edir. Bu əlamətdar gün münasibətilə kitabxanalarda çoxlu yaddaqalan tədbirlər keçiriləcəkdir.

Uşaq kitabxanalarında da Əli Vəliyevin roman və povestlərinin təbliği və yazıçını oxuculara daha dərindən sevdirmək məqsədi ilə bir-birindən maraqlı tədbirlər keçirmək olar. Kitab sərgiləri, kitab icmalları, kitab müzakirələri, ədəbi-bədii gecələr təşkil etmək də məqsədəuyğun sayıla bilər.

Yubiley ilə bağlı kitabxanalarda ilk öncə sərgilər tərtib etmək lazımdır. Sərgidə yazıçının foto şəkillərindən, əsərlərindən, şeirlərindən parçalar, yazıçı haqqında deyilən sitatlar yerləşdirmək olar. Sərgi müxtəlif başlıqlar altında düzələ bilər. Məsələn: "Əli Vəliyev-110", "Uzun ömrün yolları", "Oxucuların sevimli yazıçısı", "Sözü bir, üzü bir yazıçı", "Unudulmayan insan", "Etibarlı dost", "El ağsaqqalı", "Sevimli ədibimiz", "Sənətkar bütövlüyü", "Yazıçı şəxsiyyəti ilə bədii obrazların qovuşuğu","Silsilə romanlar müəllifi" və s. İndi isə sərginin nümunəsini veririk:

1.Başlıq : Əli Vəliyev -110.

2.Əli Vəliyevin həyatı haqqında.

3.Sitatlar.

4.Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.

5.Kitabların nümayişi.

6.Əsərlərindən parçalar.

Sərgidə istifadə etmək üçün aşağıda qeyd olunmuş sitatları veririk:

**SİTATIAR:**

"Əli Qara oğlu uzun illərdən bəri bir əlində qələm tutmuş, gözəl, səmimi, dolğun mündəricəli əsərlər yaratmış, bir əli ilə də ədəbiyyata yeni gələn gənclərin qolundan tutub qaldırmışdır".

Qasım Qasımzadə

Şair, tənqidçi

"Əli haqqında danışmaq həyatın dibindən dırmana-dırmana qalxan bir bahadır haqqında danışmaq deməkdir".

Məmməd Rahim

Xalq şairi

"Əli Vəliyevi hamının dadına çatan "təcili yardım" adlandırmaq olar".

Qulu Xəlilov

Professor

Kitabxanalarda Əli Vəliyev əsərlərinin təbliği münasibəti ilə I-IV sinif şagirdləri ilə birlikdə müəllifin "Madarın dastanı" əsərini səhnələşdirilmiş formasını vermək olar. "Madarın dastanı" hekayəsi nağıl əsasında işlənmiş ən yaxşı hekayələrdən biridir. Təsirli, inandırıcı bədii lövhələrin zəngin xalq dili ilə ifadəsi ziddiyyətli, dramatik vəziyyətlər əsəri oxunaqlı etmişdir. Burada müəllif xalqın istiqlaliyyət arzuları azad və qarşılıqlı məhəbbətini tərənnüm etmişdir. Hekayənin qəhrəmanı ata-ananın yeganə övladı olan Madardır. Naxırçı Közərmişin "gözünün ağı-qarası bircə evladı olan" Madar bir sıra gözəl müsbət xasiyyətləri ilə diqqəti cəlb edir. İradə onu tay-tuşlarından, əsərin digər personajlarından fərqləndirən ən böyük keyfiyyəti olmuşdur. Əsərin cox qısa və aydın sujetində qəhrəmanın qayə və məqsədləri aydınlaşmışdır. Bunu nəzərə alaraq, kiçik yaşlı oxucular arasında bu nağıl əsasında səhərcik hazırlamaq daha maraqlı olar. Səhərcikdən bir nümunəni təqdim edirik.

*(Səhnə qurulur. Səhnədə padşah və vəzir görünür. Səhərciyi aparıcı səsləndirir).*

| | |
|---|---|
| Aparıcı: | Madar ata-anasına padşahın qızına vurulduğunu söyləyir və onlara padşahın qızına elçi getməklərini təkid edir. Ata-anası əllərini qoyunlarına goyub ona yalvarırlar ki, bu sevdadan əl çəksin. Ancaq onların yalvarışları heç bir nəticə vermir. Axırı əlacsız qalıb padşahın qapısına elçi göndərməyi qərara alırlar. Oymağın ağsaqqallarına yalvarıb-yaxardılar. Əvvəlcə rədd etdilər, sonra "elçiyə zaval yoxdur" deyib, razılıq verdilər. Adətə uyğun olaraq gedib "elçi daşının" üstündə oturdular. Padşaha xəbər çatdı ki, naxırçı Közərmişin oğlu sənin qızın Laləyə elçi düşüb. Padşah qəzəbindən bığlarını çeynədi. Nə cavab verəcəyini bilməyib hökm etdi. |
| Padşah: | Közərmişi də, oğlu Madarı da dara çəkdirin. |
| Vəzir: | Qibleyi – aləm , sizin qızınız Lalə xanım buyurmuşdur ki, atam məni Madara verməsə özümü sağ qoymayacağam. |
| Aparıcı : | Padşahın sifəti ağappaq oldu. Yaşı altmışdan keçməsinə baxmayaraq, axırıncı arvaddan bir qızı olmuşdu. O, qızının xətrini dünyalar qədər istəyirdi. Dərhal bir az qabaq verdiyi hökmü dəyişdirdi. Ancaq qızının naxırçı oğluna getməsinə əsla razı ola bilməzdi. Elə bil bu xəbərdən sonra bütün dünya uçub padşahın başına tökülmüşdü. O, dar düşüncələr, intəhasız fikirlər içində qərq olduğu vaxt vəzir dedi. |
| Vəzir: | Qibleyi – aləm sağ olsun, məhəbbətə güc ola bilməz. Siz insanların özünə hökm edə bilərsiniz. İstədiyiniz şəxsi istədiyiniz kimi öldürə bilərsiniz. Siz yer üzünün allahısınız. |

Lakin insanların ürəyinə hakim ola bilməzsiniz. Ələlxüsus məhəbbət kimi müqəddəs bir hissə. Qibleyi-aləm! Könül sevən göyçək olar. Məhəbbət üçün böyük-kiçik, var-dövlət sədd ola bilməz. Məhəbbətin qarşısında şah da, rəiyyət də diz çökür. Odur ki, məsləhət bilirəm elçilərə "hə" cavabı verəsiniz.

Padşah: Vəzir, sən nə cəsarətlə başından yekə qələt eləyirsən? Sən necə cürət edib belə təklifi fikrinə gətirirsən? Sən necə rəva görürsən ki, mənim qızım, padşah qızı, bir naxırçı oğluna ərə getsin? Yox, vəzir, görünür sən mənə sədaqətlə xidmət eləmirsən.

Vəzir: Əlahəzrət! Mənim sözümə qulaq asın! Siz elçilərə "hə" cavabı verib yola salın. Sonra xəbər göndərin ki, oğlan gərək elə bir çiçək tapıb gətirə ki, ilin heç bir fəslində solmaya. Beləliklə, naxırçı oğlu çiçək axtarmaq üçün bütün ömrü boyu gəzər, bu cür çiçəyi tapa bilməz. Lalə xanım bir-iki il gözlər, oğlanın gəlmədiyini görüncə ondan soyuyar. Sonra siz onu istədiyiniz şəxsə ərə verə bilərsiniz...

Padşah: Bir az qabaq dediklərin yadından çıxdımı? Sözlərini nə tez unutdun? Özün deyirsən ki, könül sevən göyçək olar, məhəbbət üçün sədd ola bilməz. Mən sənə sual verirəm, məhəbbətə vaxt, zaman mane ola bilərmi?

Vəzir: Qibleyi- aləm! Cavanların məhəbbəti çox qaynar olduğu kimi çox tez də sönür. Gəlin siz mənimlə razılaşın.

Aparıcı: Vəzir padşahı inandırdı. Padşah razılaşdı. Madara xəbəri çatdırdılar.

Əli Vəliyev yaradıcılığını kiçik yaşlı oxuculara sevdirmək üçün onun şeir, nağıl, felyeton və hekayələrini geniş təbliğ etmək lazımdır. Əgər kiçik yaşlı oxucuların da arasında öz uşaq təxəyyülü ilə hekayə, felyeton, şer, nağıl və bayatı yazanlar varsa kitabxanaçı onları yaxşı, hərtərəfli məlumatlandırmalıdır. Onlara dəyərli məsləhətlər verməlidir. Bu da balaca oxuculara Əli Vəliyevi daha dərindən öyrənməyi, sevməyi, özlərini Əli Vəliyevin yaratdığı qəhrəmanlara oxşatmağa, onlarda vətənə sevgi, torpağa məhəbbət hissi aşılamağa kömək etmiş olar.

Kitabxanada keçirilən maraqlı tədbirlərdən biri icmaldır. İcmalın keçirilməsi üçün kitabxanaçının üzərinə çox böyük məsuliyyət düşür. Kitabxanaçı ən əvvəlcə yazıçının həyat və yaradıcılığı, onun əsərləri ilə tam tanış olmalı, əsər haqqında oxuculara necə məlumat verməli olduğunu tam dəqiqləşdirməlidir. Bu məqsədlə biz sizə Əli Vəliyevin 1979-ci ildə "Gənclik" nəşriyyatı tərəfindən çap olunmuş "Qənirsiz gözəl", "Budağın xatirələri" (1963-64) əsərini təqdim edirik ki, bu kitaba xalq yazıçısı Əli Vəliyevin üç povesti bir neçə hekayəsi daxil edilmişdir.

Əli Vəlivevin "Budağın xatirələri" (1963-64) romanı oxucular üçün daha da maraqlıdır. Bu romanın icmalını və yaxud da IX-X-cu sinif şagirdləri ilə birlikdə müzakirəsini də keçirmək məqsədəuyğundur. Bunun üçün kitabxanaçı romanı oxuculara tövsiyə etməli, əsəri oxumağa onlarda maraq yaratmalıdır. Əsərin ən çox tərbiyəvi cəhətlərindən oxuculara bəhs etməlidir. Təsadüfi deyildir ki, müəllif, avtobioqrafik romanı olan "Budağın xatirələri" romanını Vüqarlı kəndinin təsviri ilə

başlayır. Bu təsvirlərdə yazıçının doğma torpağa böyük məhəbbətlə döyünən ürəyinin çırpıntıları eşidilməkdədir: “Kəndimiz Salvartı dağının ətəyindədir. Dağın başından qoç daşın üstünə çıxıb kəndə baxanda iftixarımdan sinəm qabardı. Yaxşı ki, buranın adını Vüqarlı qoyublar. Doğrudan da, adına layiq kənddir. Kənddə cavanlar var ki, qaçarağına köhlən at çatmır. Qızlar var ki, tər qönçə misalındadır, sifətinə baxmaq olmur, gəlinlər var ki, yenicə açılmış gülə oxşayır, deyirsən bəs qüdrətın qələmi ilə çəkilib. Qadınlar var ki, elə bil həşəmlənmiş qızılgüldür, yanağına baxdıqca baxmaq istəyirsən. Kişilər var ki, danışanda ağzından məna, mərifət, qabiliyyət tökülür. Vüqarlının dünyagörmüş qocalarının sinəsi dastanla doludur. Ağbirçək qarılar o qədər nağıl bilirlər ki, ilin üç yüz altmış beş günü danışsalar yenə də qurtarmaz”.

Yazıçının yaradıcılığının təbliğində kitabxanalarda ədəbi-bədii gecələrin keçirilməsi də münasib sayılır. Ədəbi-bədii gecənin ssenarisini sizə təqdim edirik:

I Aparıcı : Əziz balalar, Azərbaycanın xalq yazıçısı Əli Vəliyev yaşasaydı, indi onun 110 yaşı tamam olacaqdı. Bu görkəmli yazıçı çoxlu hekayələrin, oçerklərin, romanların, povestlərin müəllifi kimi tanınıb, sevilib. Xalq ədəbiyyatını çox gözəl bilən Əli müəllim uşaqlar üçün də gözəl hekayələr, nağıllar yazırdı.

II Aparıcı: Əli Vəliyev Azərbaycan ədəbiyyatnın görkəmli nümayəndələrindən olmuşdur. Əli Vəliyevin poman və povestləri, həmçinin maraqlı hekayələri oxucu kütləsinin hörmətini qazanmışdır. Əli Vəliyev eyni zamanda zəngin təcrübəyə malik mətbuat işçisi olmuşdur. Onun jurnalist publisist irsi çoxillik fəaliyyətinin mühüm hissəsini təşkil edir və bunları öyrənmədən yazıçının yaradıçılığı barədə tam təsəvvür əldə etmək olmaz. Əli Vəliyev Azərbaycan fəhlə-kəndli müxbirləri hərəkatının fəal nümayəndələrindən biri kimi tanınmışdır.

I Aparıcı : Əli Vəliyev Azərbaycan təbiətinin, folklorunun çox gözəl bilicisi idi. Onun bir çox əsərlərində, xüsusən uşaqlar üçün yazılan hekayələrində bu gün bizim məktəblilərimiz, xalqımız üçün hava və su kimi lazım olan Vətən sevgisi, yurda, ocağa bağlılıq hissi var. Bu xüsusda onun Şuşaya həsr etdiyi “Qənirsiz gözəl” hekayəsini xatırlatmaq istəyirəm. Olmazmı ki, Şuşanın bu gün bizim üçün əlçatmaz olduğu bir vaxtda bu əvəzsiz torpağın hər qarışı, hər daşı, hər çiçəyi, əvəzsiz insanları haqda çox ətraflı məlumat verən bu vətənsevər, xalqsevər yazıçı hər vaxt yad edilsin. Mən inanıram ki, Şüşanı bir dəfə də olsun görməyən uşaqların heç olmasa, yarısının ürəyində bu gözəllik yurdunu azad etmək hissi baş qaldıracaq.

II Aparıcı: Müasirlik Əli Vəliyev yaradıcılığının ümdə xüsusiyyətidir. Ədibin kiçik hekayələrindən tutmuş iri romanlarına qədər bütün əsərlərində bu keyfiyyəti görürük. Məsələn: ən kiçik hekayələrindən olan “Atlı qadın” hekayəsində (1943) xalqın

igid qızı Həcərin bədii surəti kiçik bir təfərrüatın köməyi ilə ustalıqla müəyyənləşdirilmişdir. Ədəbiyyatşünas Kamran Məmmədov bu hekayəni "bədii təfəkkürün ən yaxşı məhsullarından biri" adlandırmışdır. Böyük Vətən müharibəsinin qızğın dövründə yazılmış bu əsərlə yazıçı öz oxucularını mərdliyə və qəhrəmanlığa, Həcərin adı ilə bağlı ənənələri davam etdirməyə çağırır, hünərvərliyin, ölməzliyin ideyasını təsbit edirdi. Əli Vəliyevin oçerk, hekayə, povest və romanları Azərbaycan nəsrində müasirlik ruhunun aparıcı keyfiyyət olduğunu göstərmək üçün tutarlı material verir.

I Aparıcı: Əli Vəliyevin ilk iri həcmli əsəri "Qəhrəman"(1937) təkamül nəticəsində meydana gəlmişdir. Müasirlik ruhu güclü olan ilk Azərbaycan romanlarındandır. "Qəhrəman" romanında Əli Vəliyev bu dövrə qədər yazdığı hekayələrdə təsvir etdiyi kəndin ayrı-ayrı problemlərini ümumiləşdirir, vahid axara salır, epik genişliyə çıxarır, dövrün, zamanın inqilabi ziddiyyətlərini, vuruşlarını ön plana çəkir, kənddə üz-üzə gələn ölüm-dirim meydanına çıxan qüvvələri təsvir edir. Romanda 1914-cü ildən 1928-ci illərə qədər bir dövrdə Azərbaycanda baş verən bir sıra hadisələr təsvir olunur. Müəllif cəmiyyətin inkişafının müəyyən mərhələsində vacib və əhəmiyyətli hadisələri isti-isti həqiqi sənətkar gözü ilə seçib ayırmış, sənətin gücü ilə öz müasirlərinə həmin hadisələrin iştirakçılarına çatdırmış, onları düşündürən suallara cavab vermişdir. Roman işıqlı gələcək uğrunda, insanların səadəti naminə mübarizə aparan 30-cu illər həyatını inandırıcı əks etdirmişdir.

II Aparıcı: Əli Vəliyevin "Çiçəkli" (1952), "Gülşən" (1953), "Ürək dostları" (1956), "Təzəgül" (1965), "Narahat adam" (1966), "Zamanın ulduzları" (1954) kimi iri həcmli əsərləri kənddə gedən quruculuq işlərinin, dinamik inkişafın bədii salnaməsidir. Müasir Azərbaycan kəndinin həyatını və xalq dilinin koloritini nəsrimizə gətirən Əli Vəliyev bu kimi romanlar yaradaraq oxucuların rəğbətini qazanmışdır. Əli Vəliyevin vaxtında qələmə alınmış "Zəngəzur qartalları" əsəri indi artıq itirilmiş torpaqlarımız haqqında əlimizdə olan canlı tarixi sənədə çevrilmişdir.

I Aparıcı: Əli Vəliyev öz publisist yazılarında yeni cəmiyyətin üstünlüklərini göstərmək və yeni həyatı tərənnüm etməklə bərabər, köhnəliyi, onun mənfur qalıqlarını kəsərli qələmlə tənqid edirdi. Ədib habelə o dövrdə "Gənc işçi" qəzetində ictimai-siyasi həyatın müxtəlif sahələrinə aid bir sira məqalələr çap etdirmişdir.ƏliVəliyev 1924-cü ildə Qala-Maştağa qəzasında mövhumat əleyhinə bir neçə məqalə yazmış, onun qələmə aldığı "Allahın səyahəti" adlı felyeton dini fanatizm

qalıqları ilə kəskin mübarizəyə yönəldilib. O, Bakı kəndlərinin bəzilərində kəmsavad mollaların, fırıldaqçıların camaatı aldadıb soymaları barədə də məqalə ilə çıxış edir. Həmin məqalə böyük səs-küyə, geniş müzakirə və mübahisələrə səbəb olmuşdur.

II Aparıcı: Əziz uşaqlar, ümid edirəm ki, bu gündən etibarən hamınız bütün yazıçıların əsərlərini,həmçinin çap edilən qəzet və jurnalları müntəzəm oxuyacaqsınız. İnsanın insan kimi yetişməsində, onun ağıllı, savadlı olmasında, dünyagörüşünün genişlənməsində, kamilləşməsində bədii sözün qüdrəti böyükdür. Sizə söylədiyim bu tövsiyələrdən sonra əminəm ki, hər biriniz Əli Vəliyev haqqında məlumatınızı artırmağa səy göstərəcəksiniz.

**S O N**

## ƏDƏBİYYAT SİYAHISI

**Əsərləri :**

1.Vəliyev Ə. Seçilmiş əsərləri. 2 cilddə. C II.- B.: Azərnəşr, 1960.- 563s.
2.Vəliyev Ə. Əsərləri. 6 cildə. C I.- B.: Azərnəşr, 1968.- 475s.
3.Vəliyev Ə. Əsərləri. 6 cildə. C IV.- B.: Azərnəşr, 1970.- 478s.
4.Vəliyev Ə. Əsərləri. 6 cildə. C V.- B.: Azərnəşr, 1970.- 538s.
5.Vəliyev Ə. Əsərləri. 6 cildə. C VI.- B.: Azərnəşr, 1971.- 471s.
6.Vəliyev Ə.Anaqız.- B.: Azərnəşr, 1965.- 335s.
7. Vəliyev Ə. Bir cüt ulduz : Eyvazın yazısı: Hekayələr//Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə. C III.- B.: Öndər, 2005.- s.182.-190.
8.Vəliyev Ə. Budağın xatirələri. Birinci kitab.- B.:Azərnəşr, 1974.- 646s.
9.Vəliyev Ə. Budağın xatirələri. İkinci kitab.- B.: Azərnəşr, 1964.- 510s.
10.Vəliyev Ə. Durna qatarı.- B.: Gənclik, 1972.- 541s.
11.Vəliyev Ə. Qarabağda qalan izlər.- B.: Gənclik, 1977.- 532 s.
12.Vəliyev Ə. Qəhrəman.- B.: Gənclik, 1983.- 320s.
13.Vəliyev Ə. Qənirsiz gözəl.- B.: Gənclik, 1979.- 326s.
14.Vəliyev Ə. Madarın dastanı.- B.: Gənclik, 1988.- 40s.
15.Vəliyev Ə. Nənəmin cəhrəsi : Atlı qadın : Hekayələr // Azərbaycan nəşri antologiyası. 5 cilddə.C.III.- B.: Şərq- Qərb, 2006.- s.168.-179.
16.Vəliyev Ə. Samovar tüstülənir.- B.: Gənclik, 1971.- 269s.
17.Vəliyev Ə. Yadda qalan xatirələr.- B.: Azərbaycan tərcümə mərkəzi, 1996.- 240s.
18.Vəliyev Ə. Yeni həyat.- B.: Gənclik, 1975.- 208s.
19.Vəliyev Ə. Zamanın ulduzları: Povestlər və hekayələr.- B.: Azərnəşr, 1976.- 455s.

**Haqqında:**

1.Əlioğlu M. Nəsrimizdə qadın azadlığı problemi : 30-cu illər // Darıxan adamlar. 2 ciliddə. I c.- B.: Təhsil, 2009.- s.367-380.
2.Əlioğlu M. Atalar və oğullar : klassik dramaturgiyaya baxış // Darıxan adamlar. 2 cilddə. I c.- B.: Təhsil, 2009.- s.535-772.
3.Xəlilzadə F. Silsilə romanlar müəllifi : Əli Vəliyev haqqında // Mədəniyyət .- 2010.- 15 dekabr.- № 88.- S.13.
4.Qasımov İ. Əli Vəliyev.- B.: Yazıçı.- 1987.- 130s.
5.Rəhimov S.Qırılmayan tellərr.- “Azərbaycan” jurnalı, 1971.- № 2.- s.134
7.Rəhimov S.Qırılmayan tellər. “Azərbaycan” jurnalı, 1971.- № 5.s.117.
8.Vəliyev Ə.Yadda qalan xatirələr. Əli Vəliyev haqqında xatirələr.- B.:Azərbaycan Tərcümə Mərkəzi, 1996.- 240s.

Tərtib edən:Yasəmən İsmayılova- F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi katibi.

Redaktor: Fizurə Quliyeva-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru